

# Klassik irsimizin istedadlı yazıçı və tədqiqatçısı

***Mehdi Hüseyn - 115***

*(Daycest)*

**Bakı – 2024**

## Həyat və yaradıcılığı

Mehdi Əli oğlu Hüseynov 1909-cu il mart ayının 22-də Qazax rayonunun Şıxlı kəndində anadan olmuşdur. O, Azərbaycan Dövlət Universitetinin pedaqoji fakültəsinin tarix şöbəsini (1929) və Moskvada Dövlət Kinematoqrafiya İnstitutu yanında akademiya tipli kinossenaristlər kursunu (1938) bitirmiş, Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin məsul katibi, Azərbaycan Sovet Yazıçıları İttifaqı Təşkilat Komitəsinin məsul katibi (1930-1934), Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin birinci katibi, SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin katibi (1958-1965) olmuşdur.

Mehdi Hüseyn yaradıcılığa müxbir yazıları ilə başlamışdır. İlk tənqidi məqaləsi ("Bizdə futurizm cərəyanı") 1926-cı ildə, ilk hekayəsi ("Qoyun qırxımı") isə 1927-ci ildə dərc edilmişdir. "Bahar suları" (1930), "Xavər" (1930) kitablarındakı hekayələrdə Azərbaycan kəndində yeni həyat uğrunda mübarizənin səciyyəvi epizodları, dövrün koloriti əksini tapmışdır. "Tunel" (1927), "Qan intiqamı" (1928), "Kin" (1935), "Daşqın" (1933-1936) romanında Mehdi Hüseyn fərdi xüsusiyyətləri ilə seçilən surətlər yaratmışdır.

Azərbaycan ədəbiyyatında ilk tarixi povest olan "Komissar"da (1942-1949) peşəkar inqilabçı Məşədi Əzizbəyovun surəti ön plana çəkilmişdir. Ən mühüm tarixi əsəri olan "Səhər" (1953), "Tərlan" (1940), "Vətən çiçəkləri" (1942), "Moskva" (1942), "Ürək" (1945), "Fəryad" (1945) əsərlərində vətənpərvərliyin qüdrəti, adamların mərdliyi və qəhrəmanlığı tərənnüm olunur. Neftçilərin həyatından bəhs edən "Abşeron" (1949), müəyyən mənada onun davamı olan "Qara daşlar" (1957-1959) və "Yeraltı çaylar dənizə axır" (1965) romanları ictimai, mənəvi-əxlaqi problemlərə cəsarətli müdaxilə baxımından diqqətəlayiqdir. Mehdi Hüseyn dramaturq kimi də tanınmışdır. Dram yaradıcılığına "Şöhrət" (1939) pyesi ilə başlamışdır. "Nizami" (1942) və "Cavanşir" (1957) tarixi dramlarında Azərbaycan xalqının vətənpərvərliyi, qəhrəmanlıq ənənələri əks olunmuşdur. "Alov" (1961), "İntizar" (1944, İlyas Əfəndiyevlə birgə), "Şamil" (1940-1941) və "Qardaşlar" (1948) pyesləri, habelə xatirələri, yol qeydləri ("Bir ay və bir gün", 1963), gündəlikləri var. Mehdi Hüseyn tənqid və publisistika sahələrində də fəaliyyət göstərmişdir. Əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur. O, 1965-ci il martın 10-da Bakıda vəfat etmişdir.

Mehdi Hüseynin 115 illik yubileyi münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası yazıçı haqqında fondunda mövcud olan əsərlərinin, haqqında yazılan kitabların, dövrü mətbuatda keçən əsrdən günümüzə qədər haqqında çıxan məqalələrin tammətnli siyahısını bir araya toplayıb oxuculara təqdim edir.

## ***Görkəmli şəxsiyyətlər Mehdi Hüseyn haqqında***

*"Yeni dövr Azərbaycan ədəbiyyatının inkişafında istedadlı nasir, dramaturq və tənqidçi Mehdi Hüseynin özünəməxsus yeri vardır. O, tarixi və müasir mövzulu bədii əsərlərin bir çox dəyərli nümunələrini meydana gətirməklə yanaşı, peşəkar ədəbiyyatşünas kimi sənətkarlıq və yaradıcılığın nəzəri məsələlərinə dair aktual mülahizələri ilə ədəbi prosesə istiqamət vermişdir".*

**İlham Əliyev,**

*Azərbaycan Respublikasının Prezidenti*

*"Mehdi Hüseyn geniş biliyə malik insan, həssas tənqidçi, dərin tədqiqatçı idi".*

**Tofiq Bayram,**

*ədəbiyyatşünas*

*"Mehdi Hüseyn bəşəri fikirlər carçısı idi, xalqının amalını göylərə ucaltmaq üçün çalışırdı".*

**Zəkiyyə Qiyasbəyli,**

*ədəbiyyatşünas*

*"Mehdi Hüseynin "Abşeron" romanı bədii xüsusiyyətləri, yazılışı, sənətkarlığı etibarilə də müasirdir. O, yığcamlığı, mənalı və şirin lakonikliyi, yerində və dolğun dialoqları etibarilə bizə bəzən Heminqueyin romanlarını xatırladır".*

**Mirzə İbrahimov,**

*Xalq yazıçısı*

*"Mehdi Hüseynin qayğısı çox sərt və amansız qayğı idi. O, heç vaxt inamının əksinə getməz, ürəyindən olmayan əsəri tərifləməzdi. Əsərə qiymət verərkən şəxsi hiss və münasibətlərini unudardı. Çünki ədəbi amal və vicdan onun üçün əsas idi. Mehdi Hüseyn dərin nəzəri biliyə malik, həmişə 11 ədəbi mübarizələrin mərkəzində dayanan, ədəbiyyatın məfkurə saflığı uğrunda vuruşan bir sənətkardır".*

**İsmayıl Şıxlı,**

*Xalq yazıçısı*

*"Mehdi, ədəbiyyatın əlisilahlı keşikçisidir. O, istər ideoloji, istərsə də sənətkarlıq cəhətdən ədəbiyyatımızda özünü göstərən bütün büdrəmələrə dərhal münasibətini bildirər və bu yalnışlığın islahına çalışardı".*

**Bəxtiyar Vahabzadə,**

*Xalq şairi*

*"Mehdi Hüseyn bütün şüurlu həyatını Azərbaycan xalqının mədəniyyətinə həsr edən gözəl bir ədibdir. O, ədəbiyyatımızın yorulmaz əsgəri, milli, coğrafi və professional məhdudluqdan uzaq bir ədib idi. Mehdi Hüseynin zəngin yaradıcılıq yolu, dərin məzmunlu, yüksək məfkurəli və mənalı əsərləri gənc nəslimiz üçün ən yaxşı tərbiyə vasitəsidir".*

**Mir Cəlal Paşayev,**

*Filologiya elmləri doktoru*



*“Mehdi Hüseyn xalqın sevgisini, etibarını qazanmış sənətkarlarımızdandır. Bu etibarın dayaq nöqtəsi yazıçı saflığı, insan amalı idi. Bəli, Mehdi Hüseyn özündə əsl yazıçı xarakteri tərbiyyələndirmiş bir insan idi. Onun əsərləri amalının, müasirliyinin bariz nümunəsidir”.*

**İsa Muğanna,**

*Xalq yazıçısı*

*“XX əsr Azərbaycan ədəbiyyatında qüvvətli nasir, dramaturq, prinsipial tənqidçi Mehdi Hüseynin tənqidçi üslubunda ən çox maraq doğuran, həm ümumən ədəbi prosesi, həm ayrı-ayrı yazıçıların yaradıcılığını, həm də bu və ya digər əsəri daha dərindən anlamağa, daha obyektiv dəyərləndirməyə kömək edən texnoloji üsullardan biri tənqidin tənqididir”.*

**Nizami Cəfərov,**

*Filologiya elmləri doktoru, professor*

*“Mehdi Hüseyn həm həyatda, həm də yaradıcılığında çox prinsipial adam idi. Mehdi Hüseyndəki prinsipiallıq saxta inadkarlıqdan tamamilə uzaq bir xüsusiyyət idi. Həm də bu xüsusiyyət təkcə onun öz xarakterində deyil, əsərlərində, qəhrəmanlarında da var”.*

**Səid Rüstəmov,**

*bəstəkar*

*“Mehdi Hüseyn təkcə Qafqazla əlaqədar problemləri həll etməyə çalışan yazıçı deyil, özünün bütün biliyini və yaradıcılığını bir çox xalqların ədəbiyyatı ilə bağlı mübahisələrdən ayırmayan bir sənətkardır”.*

**Lui Araqon,**

*Fransa şairi*

*“Daşqın” əsəri yazıçının və həm də gənc Azərbaycan nəsrinin müvəffəqiyyətlərindən biridir”.*

**Rəsul Rza,**

*Xalq şairi*

## ***Kitabları***

Seçilmiş əsərləri : 3 cilddə. I cild : Hekayələr, roman. - Təkrar nəşr, 1966 və 1976-cı il nəşrləri əsasında. - Bakı : Avrasiya Press, 2005. - 312 s.

Seçilmiş əsərləri : 3 cilddə. II cild. - Təkrar nəşr, 1969-cu il nəşri əsasında. - Bakı : Avrasiya Press, 2005. - 313 s.

Seçilmiş əsərləri : 3 cilddə. III cild : Pyeslər. - Təkrar nəşr, 1978 və 1979-cu il nəşrləri əsasında. - Bakı : Avrasiya Press, 2005. - 312 s.

Hop-hop. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1949. - 26 s.

## ***Əsərləri dövrü mətbuatda***

Xalqın şairi : Mirzə Ələkbər Sabir haqqında // Ədəbiyyat qəzeti. -2009. -5 iyun. - S. 1.

İki bacı : nağıl // Göyərçin. - 2023. - № 9. - S. 6-7.

İlhamlı kitab // Kommunist. – 1965. – 13 fevral.

Otello // Qobustan. – 2009. - № 1. – S. 4-6.

## ***Haqqında dövrü mətbuatda***

**Abdullayev C.** Ədəbi döyüşlər cəngavəri // Azərbaycan gəncləri. – 1969. – 11 dekabr. – S. 3.

**Arif M.** Xalq yazıçısı : Mehdi Hüseynin anadan olmasının 60 illiyi // Kommunist. – 1969. – 21 dekabr.

**Bayram T.** Ədəbi gəncliyin mənəvi atası // Azərbaycan : jurnal. – 1989. - № 9. - S. 142-154.

**Bayram T.** Mehdi Hüseyn küçəsi : şeir // Ulduz. – 1969. - № 4. – S. 8.

**Bünyadov T.** Dostluq və sədaqət nümunəsi : Mehdi Hüseyn – 100 // Xalq qəzeti. – 2009. – 22 aprel.

**Bünyadzadə T.** Üç xatirə // Ədəbiyyat və incəsənət. – 1969. – 5 aprel. – S. 10.

**Cəfərov N.** Mehdi Hüseynin tənqidçi üslubunda tənqidin tənqidi // Ədəbiyyat qəzeti. – 2016. – 8 oktyabr. – S. 14.

**Cəlal M.** Zəngin yaradıcılıq yolu // Azərbaycan : jurnal. – 1969. - № 4. – S. 34-37.

Ədəbiyyatımızın düşünən beyni // Mədəniyyət. – 2024. – 17 aprel. - № 27-28. – S. 4.

**Əfəndiyev Ə.** Parlaq istedad : Mehdi Hüseynin anadan olmasının 70 illiyi qarşısında // Ədəbiyyat və incəsənət. – 1979. – 13 aprel.

**Əhmədov B.** O, sənətkara qiymət verirdi : Mehdi Hüseyn – 80 // Ədəbiyyat və incəsənət. – 1989. – 8 dekabr. - № 49. – S. 3.

**Əlioğlu M.** Onun amalı ədəbiyyat idi // Ədəbiyyat və incəsənət. – 1969. – 24 may. – S. 7.

**Əliyev X.** İnam və əqidə mücahidi // Respublika. – 2009. – 4 aprel.

**Əliyeva İ.** Zəngin erudisiyalı yazıçı : Mehdi Hüseyn haqqında // Ədəbiyyat qəzeti. - 2018. - 1 sentyabr. - № 32. - S. 18.

**Hacıyev H.** Mehdi Hüseynin yaradıcılığında müasirlik : Mehdi Hüseyn – 75 // Ulduz. – 1984. - № 4. – S. 35-39.

**Hüseynoğlu S.** Mehdi Hüseyn memarı // Ədəbiyyat qəzeti. – 2009. – 12 may. – S. 1, 2.

**Xəlilov B.** Nizami Gəncəvi obrazı Mehdi Hüseyn qələmində // 525-ci qəzet. – 2021. – 10 aprel. - S. 18.

**Xəlilzadə F.** Azadlığı və azad sözü sevən Mehdi Hüseyn // Kaspi. - 2016. - 27 oktyabr. - № 173. - S. 14.

**Xəlilzadə F.** Ədəbi tənqidimizin cəngavəri // Azərbaycan : qəzet. – 2009. – 13 mart. – S. 6.

**Kəmərli A.** Mehdi Hüseyn : Anadan olmasının 70 illiyi // Pioner. – 1979. - № 6. – S. 18.

**Qiyasbəyli Z.** Mehdi Hüseyn müasirlərinin gözü ilə // Ədəbiyyat qəzeti. – 2009. – 22 may. – S. 3.

Mehdi Hüseynin 100 illik yubileyi qeyd olundu // Mədəniyyət. – 2009. – 1 may. – S. 2.

Mehdi Hüseynin 100 illiyilə bağlı kitab sərgisi açılıb // 525-ci qəzet. – 2009. – 12 iyun. – S. 7.

Mehdi Hüseynin xatirəsi yad edilib // Mədəniyyət. – 2019. – 5 aprel. – S. 7.

Mehdi Hüseynin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentin in (6 fevral 2009-cu il) // Azərbaycan : qəzet // 2009. – 7 fevral. – S. 1.

**Məhərrəmov V.** Zamanın fövqündə dayanan ədəbi irs // Azərbaycan : qəzet // 2024. – 23 aprel. - № 81. – S. 15.

**Məmmədoğlu Ə.** Əsər necə yaranır : Mehdi Hüseyn – 80 // Ədəbiyyat və incəsənət. – 1989. – 8 dekabr. - № 49. – S. 3.

**Muğanlı Ə.** M.Hüseyn və Azərbaycan kinosu : Mehdi Hüseyn - 80 // Ədəbiyyat və incəsənət. – 1989. – 8 dekabr. - № 49. – S. 3.

**Musayev T.** Dostluq və qardaşlıq tərənnümçüsü : Mehdi Hüseyn - 75 // Ədəbiyyat və incəsənət. – 1984. – 23 mart.

**Musayev T.** Yazıçı və sovet ədəbiyyatı : M.Hüseyn – 80 // Azərbaycan müəllimi. – 1989. – 6 dekabr.

**Nəsiboğlu V.** Xalqın eşqi ilə döyünən ürək : Mehdi Hüseynin anadan olmasının 80 illiyi münasibətilə // Azərbaycan gəncləri. – 1989. – 7 dekabr. – S. 3.

**Paşayev A.** Mehdi Hüseynin klassik irsə münasibəti // Azərbaycan müəllimi. – 1983. – 6 iyun.

**Pleskaçevski M.** İlham və zəhmət : Mehdi Hüseynin anadan olmasının 70 illiyi qarşısında // Ədəbiyyat və incəsənət. – 1979. – 11 may. – S. 6, 8.

**Sabutay**.  Vidadi Babanlı: "Ədəbiyyatda onun dəyişilməz prinsipləri vardı" // Mədəniyyət. – 2009. – 11 mart. – S. 13.

**Sabutay.** Böyük yazıçı anıldı : Mehdi Hüseynin 100 illik yubileyi qeyd edildi // Mədəniyyət. – 2009. – 17 iyun. – S. 12.

**Salamoğlu T.** Bütün zamanların sənəti : Mehdi Hüseyn – 100 // Xalq qəzeti. – 2009. – 29 aprel. – S. 6.

**Vəliyev K.** Klassik irsimizin istedadlı tədqiqatçısı // Azərbaycan gəncləri. – 1969. – 11 dekabr. – S. 3.

**Vüsal B.** Bitməyən yazıçı ömrü : Mehdi Hüseynin 100 illiyinə // 525-ci qəzet. – 2009. – 18 mart. – S. 7.

**Vüsal B.** Mehdi Hüseyn qayğıkeşliyi // Ədəbiyyat qəzeti. – 2009. – 3 aprel. – S. 3.

**Yusifli V.** Mehdi Hüseyn fenomeni : Kimlər keçdi bu dünyadan... // Ədəbiyyat qəzeti. – 1999. – 23 mart.

**Tərtib etdi :** **Ağayeva İranə**